# Qəhrəman komandir

**30 ilə yaxın bir zamanda işğalda qalan torpaqlarımız 44 günlük Vətən müharibəsi zamanı azad edildi. Bu müharibə dünyaya Azərbaycan xalqının, Azərbaycan Ordusunun və Ali Baş Komandan cənab İlham Əliyevin birliyini sübut etdi.**



Azərbaycan xalqı orduyla birləşib Ali Baş komandanın havaya qalxan dəmir yumruğuna güc verdilər və düşmənin başına daha da zərblə enməsinə dəstək oldular. 44 günlük müharibə bütün dünyaya Azərbaycanın ordusunun gücünü, Azərbaycan prezidentinin qətiyyətini, Azərbaycan xalqının sarsılmazlığını, mərdliyini, vətənpərvərliyini göstərdi. Qalib xalq, qalib ölkə, qalib Ali Baş Komandanı ilə birlikdə Azərbaycan dünya tarixinə qızıl hərflərlə möhtəşəm zəfərini yazdı.

Uzun illər işğalda qalan ərazilərdə bütün tarixi abidələr, dini ziyarətgah və məscidlər, muzeylər, evlər tamamilə məhv edilmişdir. Ermənilər Xocalı soyqırımı zamanı etdikləri son dərəcə vəhşilik, vandallıqları işğaldakı torpaqlarda da davam etdirmiş, Azərbaycan xalqının izini o torpaqlardan silmək üçün hətta qəbiristanlıqları belə məhv etmiş, məzarları dağıtmışlar. Ümid edirəm ki, heç bir Azərbaycan vətəndaşı baş verənləri unutmayacaq, keçmişdən dərs çıxaracaq, növbəti işğalların, soyqırımların yaşanmasına bir daha imkan verməyəcək. Ermənilərin vəhşi, terrorist, vandal olduqlarını, dini ibadətgah yerlərinə, tarixi abidələrə, yaşayış məskənlərinə vurduğu zərəri, minlərlə şəhidimizi, qazilərimizi yaddan çıxartmaq olmaz.

44 günlük Vətən müharibəsinin qəhrəmanlarından biri də qardaşım **mayor Vüsal Vəliyevdir.** O, 1988-ci il iyulun 15-də Şərur rayonunun Dizə kəndində anadan olub. 1994-2002-ci illərdə Şərur rayon Dizə kənd orta məktəbində, 2002-2005-ci illərdə Heydər Əliyev adına Hərbi liseydə, 2005-2009-cu illərdə isə Heydər Əliyev adına Ali Hərbi Məktəbdə hərbi təhsilin sirrlərinə yiyələnib. 2012-ci ildə Xüsusi Təyinatlı Qüvvələr təlimini uğurla başa vurub.

2009-cu ildən leytenant hərbi rütbəsində Beyləqan rayonunda xidmətə başlayıb. Tank əleyhinə taqımın komandiri, motoatıcı taqım komandiri, motoatıcı taborun qərargah bölüyünün komandiri, motoatıcı bölüyün komandiri, tank əleyhinə bölüyün komandiri, motoatıcı taborun qərargah rəisi, tabor komandirinin müavini, motoatıcı taborun komandiri vəzifələrində Beyləqan, Füzuli, Ağdam, Tərtər, Tovuz, Qazax və Göygöl-Murovdağda xidmət edib, mayor hərbi rütbəsinəcən yüksəlib. Xidmət etdiyi müddətdə mayor Vüsal Vəliyevə "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 95 illiyi (1928-2013) Yubiley medalı", "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018) Yubiley Medalı", "10 il Qüsursuz xidmətlərə görə" 3-cü dərəcəli medalı və Azərbaycan Respublikası Müdafiə Naziri General-Polkovnik Zakir Həsənov tərəfindən təqdim edilmiş xüsusi medalla təltif olunub.

Vüsal Vəliyev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı həmlə taborunun komandiri idi. Murovdağdan başlanan döyüş yolu Şuşanın azadlığınadək davam etmişdi. Mayor Vüsal Vəliyev noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olub. 14 dekabr 2020-ci il tarixdə Şərur rayonundakı Şəhidlər Xiyabanında dəfn olunub.

Mayor Vüsal Vəliyev nişanlı idi. Xidmət etdiyi bölgələr tez-tez dəyişdiyi, müxtəlif hərbi təlimlərə qatıldığı üçün təyin edilmiş toyun vaxtı bir neçə dəfə təxirə düşmüşdü. 2020-ci il oktyabrın 2-də Vüsal ailəmizlə son dəfə danışdı, vidalaşdı. Daha sonra onunla əlaqə kəsildi və itkin elan edildi. Atam İslam Vəliyev qardaşım mayor Vüsal Vəliyevin itkin düşdüyü xəbərini 13 oktyabrda öyrəndi və elə həmin gün də dünyasını dəyişdi.

Hərbi hissə qarşısında qoyulmuş bütün tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi, döyüşdə şücaət və igidlik göstərdiyi üçün mayor Vüsal Vəliyev ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda" "Kəlbəcərin azad olunmasına görə", "İgidliyə görə" medalları, "Azərbaycan bayrağı" və "Rəşadət" ordenləri ilə təltif edilib.

**Əpoş VƏLİYEV**
**AMEA Folklor İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru**